Əl işdən soyumaz, ürək arzudan...



# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

1933-cü ildən nəşr olunur

№ 9-11 (7246-7248) Çərşənbə, 4 fevral 2015-ci il Qəzet ayda 4 dəfə çıxır Qiymәti 40 qәpik

Xüsusi buraxılış

# Qəbələ sürətli inkişafın yeni mərhələsində




***Azərbaycanın yeni inkişaf strategiyasının məqsədi əhalinin rifah halının yüksəldilməsi, milli gəlirin səviyyəsinin daha da artırılması və iqtisadiyyatın rəqabət qabiliyyətinin gücləndirilməsindən ibarətdir. Strategiya ölkənin mövcud potensialının səmərəli reallaşdırılmasına şaxələnmiş və ixracyönümlü dayanıqlı iqtisadiyyatın formalaşdırılmasına yönəlmişdir.***

***İlham ƏLİYEV.***





*Ümummilli liderimiz Heydər Əliyevin yaxın silahdaşı, Azərbaycan Respublikası Ağsaqqallar Şurasının sədri, Milli Məclisin üzvü, qəbələlilərin sevimlisi Fəttah Heydərov rayonumuzda sosial-iqtisadi inkişaf sahəsində həyata keçirilən bütün layihələrin icrasının iştirakçısı olmuş və bu işlərə yorulmaz əmək sərf etmişdir.*

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2014-cü ildə sosial-iqtisadi inkişafın yekunlarına dair hesabat məruzəsi

**Hörmətli qonaqlar!**

**Hörmətli yığıncaq iştirakçıları!**

Yanvarın 10-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2015-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.

Dövlət başçısı iclasda 2014-cü ildə ölkə iqtisadiyyatının uğurla inkişaf etdiyini vurğulamışdır.

"Ötən il dünyada və bölgədə bir sıra proseslərin getməsinə baxmayaraq Azərbaycan özününün sürətli inkişaf tempini saxladı, xalqımız 2014-cü ildə də təhlükəsizlik şəraitində yaşadı"-deyən cənab İlham Əliyev bildirmişdir ki, iqtisadiyyatımız 3 faiz, qeyri-neft sektoru 7 faiz, əhalinin pul gəlirləri 4,8 faiz artmış, inflyasiya 1,4 faiz olmuşdur. Cənab Prezident qeyd etmişdir ki, bu dövrdə ölkə iqtisadiyyatına 27 milyard dollar investisiya qoyulmuşdur ki, onun da 16 milyard dollarını daxili sərmayələr təşkil edir. Manatın məzənnəsi sabit qalmış, valyuta ehtiyatlarımız artaraq 50 milyard dolları keçmişdir.

2014-cü ildə ölkədə 30-dan çox sənaye müəssisəsinin yaradıldığını, xeyli yeni iş yerlərinin açıldığını qeyd edən cənab İlham Əliyev keçən il bir neçə nəhəng layihənin də icra olunduğunu, Azərbaycanın yer səthini müşahidə edən ikinci peykinin orbitə buraxıldığını bildirmişdir. Düşünülmüş iqtisadiyyatın verdiyi imkanlardan faydalanaraq sosial sahənin inkişafına diqqətin artırıldığını deyən dövlət başçısı 2014-cü ildə 60-dan çox tibb mərkəzinin, 50-dən artıq məktəbin tikilib istifadəyə verildiyini, "ASAN xidmət"in uğurla fəaliyyət göstərdiyini vurğulamışdır.

Eləcə də ötən il Azərbaycanın beynəlxalq əlaqələrinin də uğurlu olduğuna diqqət çəkən cənab Prezident, ölkəmizin ikitərəfli və çoxtərəfli formada fəal xarici siyasət yürütdüyünü qeyd etmişdir.

"Azərbaycan dünyada böyük hörmətə malikdir"-deyən cənab İlham Əliyev ölkəmizin regional məsələlərin həllində mühüm amil olduğunu və dövlətimizin beynəlxalq təşkilatlarla bundan sonra da fəal əməkdaşlıq edəcəyini söyləmişdir.

Çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan ölkə başçısı Ermənistanın 2014-cü ildə də imitasiya taktikasına üstünlük verdiyini və münaqişənin həlli ilə bağlı heç bir konstruktiv addım atmadığını demişdir. Ötən il Ermənistanın bir neçə dəfə açıq təxribatlar törətməsinə diqqət çəkən cənab Prezident bu cəhdlərin qarşısının ordumuz tərəfindən uğurla alındığını və düşmənin böyük itki verdiyini bildirmişdir.

2014-cü il Qəbələ rayonunun da sosial-iqtisadi və ictimai-siyasi həyatında uğurlu, əlamətdar il kimi yadda qalmışdır.

**(Ardı 2-ci səhifədə).**